*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (6) 2024*
*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:04.08.2024*
*Kabul tarihi |Accepted:23.11.2024*
*Yayın tarihi |Published:25.12.2024*

**İradə Əliyeva**

*https://orcid.org/0009-0006-1524-726X*
*Dr. Institute of History and Ethnology of the National Academy of Sciences of Azerbaijan, Azerbaijan, aliyevairada72@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Əliyeva, İ. (2024). Qafqazın müsəlman əhalisinin Osmanlı dövlətinə köçü çarizmin xristianlaşdırma siyasətinə qarşı etiraz forması kimi. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (6), 4757-4767.

# Qafqazın müsəlman əhalisinin Osmanlı dövlətinə köçü çarizmin xristianlaşdırma siyasətinə qarşı etiraz forması kimi

***Xülasə***

*XIX əsr Qafqaz xalqlarının tarixində xüsusi yer tutan bir dövrdür. Çar Rusiyası, Qacar İranı və Osmanlı imperiyası arasındakı ziddiyyətlərin və maraqların toqquşduğu bölgəyə çevrilən Qafqaz XIX əsrdə uzunsürən hərbi əməliyyatlar meydanına çevrilir. Həmin vaxtı çar Rusiyası bölgənin hərbi işğalı ilə paralel şəkildə ideoloji sahədə də bu bölgəyə nüfuz etməyə başlayır. Çarizm tərəfindən bu istiqamətdə həyata keçirilmiş tədbirlərdən zorakı xristianlaşdırma siyasəti xüsusi olaraq qeyd olunmalıdır. Təqdim olunan məqalədə arxiv sənədləri və digər ilkin qaynaqların verdiyi məlumatlar əsasında Qafqazın müsəlman əhalisinin Osmanlı dövlətinə köçü problemi çarizmin zorakı yollarla apardığı xristianlaşdırma siyasətinə qarşı etiraz forması kimi tədqiq olunur.*

***Açar sözlər:*** *Şimali Azərbaycan, Qafqaz Müsəlmanları, Osmanlı İmperiyası, Köç, Xristianlaşdırma, Çarizm*

# Migration of the Muslim population of the Caucasus to the Ottoman Empire as a form of protest against the Tsarist policy of Christianisation

***Abstract***

*The 19th century is a period with a special place in the history of the Caucasian peoples. The Caucasus, which became a region of contradictions and conflicting interests between Tsarist Russia, Qajar Persia and the Ottoman Empire, became the scene of prolonged military campaigns in the 19th century. At that time, Tsarist Russia, in parallel with its military occupation, began to penetrate the region ideologically. Among the measures taken by the tsarism in this direction, the policy of forced Christianisation deserves special mention. In the present article, the problem of the migration of the Caucasian Muslim population to the Ottoman Empire as a form of protest against the violent*

BY NC
Creative Commons Licence

*Christianisation policy of the Tsarist regime is examined on the basis of archival documents and other primary sources.*

***Keywords:*** *North Azerbaijan, Caucasian Muslims, Ottoman Empire, Migration, Christianisation, Tsarism*

## Giriş

XIX əsrdə çar Rusiyanın xarici siyasətinin başlıca istiqamətlərindən biri Qafqaz idi. Məhz həmin əsrin əvvəllərindən etibarən öz sərhədlərini və təsir dairəsini genişləndirməyə, cənub sərhədlərindəki strateji mövqelərini möhkəmləndirməyə çalışan çar Rusiyası Qafqaz diyarına münasibətdə işğalçılıq siyasətini genişləndirir. Bu diyarın işğal edilməsi məqsədilə 1801-1864-cü illərdə aparılmış hərbi əməliyyatlar tarixi ədəbiyyata Qafqaz müharibələri adı ilə daxil olmuşdur. Bu müharibələr zamanı diyarın müsəlman əhalisi onlara qarşı tətbiq olunan sərt hərbi üsullar, çarizmin müstəmləkəçi milli-dini siyasəti, eləcə də zorakı pravoslaşdırma tədbirlərinə qarşı etiraz forması kimi bu diyarı tərk edərək Osmanlı imperiyasına köçü, miqrasiyası başlanmışdır. Geniş anlamda əhalinin miqrasiyası bəşəriyyətin etnik simasını dəyişdirən bir hadisədir. Müəyyən sivilizasiyaların tarixi inkişafının müxtəlif mərhələlərində miqrasiya proseslərini izlədikdə görürük ki, bu prosesin nəticəsində nəhəng insan kütlələri müxtəlif səbəblərdən yeni ərazilərin fəth edilməsi və məskunlaşdırılması üçün bir yerdən digər yerlərə hərəkət etmişlər. XIX əsr boyu Qafqazın əhalisinin Osmanlı imperiyasına mühacirəti köç xarakteri almışdı.

XIX əsrin ikinci yarısında Qafqazın əsasən dağlı əhalisinin mühacirəti əsl demoqrafik fəlakətlə nəticələndi. Söhbət əsasən Şimal-qərbi Qafqazın xəritəsindən bir çoxu əbədi olaraq yoxa çıxan adıq (ubıx, şapsuq, abazin və s. – Ə.İ.) xalqlarından getsə də, mühacirliyin acı taleyi bir neçə on minlərlə insanı əhatə etməklə digər xalqlardan, eləcə də azərbaycanlılardan da yan keçmədi. Həmin dövrdə çar Rusiyasının Şimali Azərbaycanda apardığı zorakı pravoslavlaşdırma siyasətindən narazılıq Cənubi Qafqaz müsəlmanlarını da onların nəzərində İslam dünyasının zirvəsini təcəssüm etdirən Sultan Türkiyəsinə köç etməyə vadar etdi. Tədqiqatçıların hesablamalarına görə, həmin vaxtı Osmanlı dövlətinə köçürülmüş və ya köç etmiş qafqazlıların sayı 500 mindən 3 milyon nəfərə qədər olmuşdur (Abdulaeva, 2006). Qafqaz xalqlarının əsasən oxşar köçürülmə prosesi xüsusi ədəbiyyatda fərqli formalarla – mühacirət, köçürmə, mühacirlik, qovulma, deportasiya, hətta soyqırım kimi anlayışlar şəklində öz əksini tapmışdır. Belə terminoloji fərqləndirmə Qafqazın müxtəlif xalqlarının köçürülməsi prosesinin spesifik xüsusiyyətləri ilə bağlıdır. Təqdim olunan məqalədə çar Rusiyasının Şimali Azərbaycanda apardığı zorakı pravoslavlaşdırma siyasətinə qarşı etiraz əlaməti olaraq yerli əhalinin Osmanlı dövlətinə köç etməsi problemi araşdırılmışdır.

Sərt hərbi üsulların üstünlük təşkil etdiyi Şimali Qafqaz mühacirətindən fərqli olaraq, Şimali Azərbaycandan Osmanlı dövlətinə olmuş mühacirətin fərqi əsasən qeyri-zorakı xarakter daşıması idi. Lakin bütün Qafqaz miqrasiyası üçün xarakterik olan çarizmin müstəmləkəçilik siyasəti, dini amil, Osmanlı və Qərbi Avropa dövlətlərinin Rusiya ilə qarşıdurması, onların Qafqaz regionu uğrunda rəqabəti kimi amillər Şimali Azərbaycanda baş vermiş köçün də əsas səbəblərini təşkil edirdi.

Vurğulamaq lazımdır ki, Şimali Azərbaycandan Osmanlı dövlətinə köçmə hərəkatı sosial-iqtisadi amillərlə bağlı idi. Azərbaycanın bəzi bölgələrində miqrasiya əhval-ruhiyyəsinin artması ilə çarizmin müstəmləkə siyasətinin müxtəlif formalarda təzahür etməsi arasında ciddi əlaqə var idi. Buraya çarizmin müstəmləkəçi vergi siyasətini, özünün müstəmləkə maraqlarına xidmət edən sosial, iqtisadi, siyasi, mədəni, təhsil, eləcə də zorakı xristianlaşdırma sahəsindəki siyasətini qeyd etmək olar.

Qafqazda, o cümlədən də Şimali Azərbaycanda hər bir müsəlmanın bütün həyatı ciddi şəkildə müsəlman ehkamları ilə tənzimləndiyi üçün həm cəmiyyətə təsirlərinə, həm də sayına görə ciddi qüvvə hesab olunan müsəlman ruhaniləri köç prosesində ciddi rol oynamışlar. Buna görə də təəccüblü deyil ki, Şimali Azərbaycanda əhalinin Osmanlı dövlətinə köçünün əsas səbəblərindən biri məhz dini xarakterli idi. Bu da çarizmin bu diyarda yeritdiyi zorakı pravoslavlaşdırma siyasəti ilə sıx şəkildə bağlı idi.

Qafqaz müsəlmanlarının Osmanlı dövlətinə köçündə yerli ruhanilərin rolu qeyd edilməklə bərabər, arxiv sənədlərindən bu tədbirin eyni zamanda Rusiya hökumətinin dövlət siyasəti olduğu da bəlli olur. Bu barədə general N. İ. Yevdokimov yazırdı: “tabe olmayanların Türkiyəyə köçürülməsi, şübhəsiz ki, bizim tərəfimizdən çox səy göstərmədən müharibəni ən qısa müddətdə bitirə biləcək mühüm dövlət tədbiridir”. Çar Rusiyasının Qafqazın müsəlman əhalisi arasında apardığı zorakı xristianlaşdırma siyasətinin həyata keçirilməsi məqsədilə 1859-cu ildə təşkil olunmuş Qafqazda Pravoslav Xristianlığının Bərpası Cəmiyyətinin fəaliyyət proqramında isə bu barədə göstərilirdi ki, “fanatiklərin (müsəlman ruhanilərinin – İ.Ə.) xaricə köçürülməsini sürətləndirmək və xüsusilə zərərli molla və əfəndilərin sayını azaltmaq” lazımdır (Matveev, 2017). A. P. Yermolovun Qafqazdakı Rusiya ordularının baş komandan təyin olunmasından sonra onun müsəlman əhaliyə münasibətdəki sərt və repressiv siyasəti yerli əhalinin ciddi narazılıqlarına səbəb olur. Nəticədə bu, XIX əsrin 20-ci illərinin sonlarından etibarən Qafqaz müsəlmanlarının arasında müsəlmanları kafirlərə qarşı mübarizəyə çağıran müridizm dini təliminin yayılmasına səbəb olur. Çar hakimiyyət orqanları Qafqaz müridizminin nümayəndələrinə qarşı ciddi şəkildə mübarizə aparır, bu zaman demək olar ki, bütün repressiv

vasitələrdən istifadə olunurdu. Onlara qarşı edilən təzyiq və təqiblərdən yaxa qurtarmaq məqsədilə yerli müsəlman din xadimləri çıxış yolunu Osmanlı dövlətinə köçməkdə görürdülər. 1849-cu ilə dair hadisələrdən bəhs olunan arxiv sənədlərinin birində Nuxa qəzasından 20 nəfər ruhani şəxsin Osmanlı dövlətinə köçmək üçün komandanlığa müraciət etdikləri göstərilirdi (SGİA Gruziya. № 3, op. № 1, del. № 907, l 76-76 ob). Krım müharibəsi dövrü Qafqaz xalqlarının Osmanlı dövlətinə köçündə xüsusi mərhələni təşkil edir. Bu dövr istər Osmanlı dövlətinin Qafqazda fəallaşması, istərsə də Qafqazda, xüsusilə də Şimali Azərbaycanın şimal qəzalarında müridizm hərəkatının yüksəlişi ilə xarakterizə olunur. Arxiv sənədlərində Krım müharibəsi illərində Osmanlı dövlətinə köçün nəinki yerli din xadimləri, müridizm tərəfdarları, hətta rus ordusunda xidmət edən müsəlman hərbiçilərinin arasında da geniş şəkildə yayılması barədə kifayət qədər məlumatlar vardır. Müsəlman Süvari Alayının zabiti Şamaxı şəhər sakini podpolkovnik Ömər bəy Qasımxanov və qardaşı podporuçik Osman bəy müridizmin fəal ardıcılları olmaqla Osmanlı dövlətinə qaçmaq məcburiyyətində qalmışdılar (ARDTA, F № 45, s. № 2, iş № 82, v. 8-9 ar). Bu prosesin qarşısını almaq üçün Rusiya hökuməti 1857-ci ildə xüsusi qaydalar hazılayır. Rusiya İmperiyasının Qanunlar Külliyyatının XV cildində yer almış "Vətənin icazəsiz tərk edilməsi haqqında qanun"un 367, 368, 369 və 370-ci maddələrinə əsasən Vətənini tərk edəndən sonra hökumətin icazəsi olmadan başqa dövlətdə xidmətə girən, yaxud xarici ölkənin təbəəliyini qəbul edənlər sadiq təbəəlik borcunu və andığı pozduğuna görə Vətənində qalmış əmlakına sahiblik hüququndan məhrum edilirdi. Əgər həmin şəxs sonradan özbaşına Rusiyaya qayıdardısa Sibirə sürgünə məhkum olunurdu. Vətənini tərk edən hökumətin çağırışı ilə geri qayıtmazdısa bu əməlinə görə də o, itaətsizlik göstərmək ittihamı ilə əmlaka sahiblik hüququndan məhrum edilməklə əbədi olaraq vətənindən sürgün olunmaqla cəzalandırılırdı. Əgər həmin şəxs bunun üçün keçərli bir səbəb olduğunu məhkəmə tərəfindən müəyyən olunmuş müddətdə sübut etməzdisə onun mülkü qəyyumluq idarəsinə keçirdi. Qanunla məqbul hesab olunan səbəb olmadan icazə verilmiş müddətdən artıq Vətəninə dönmədən xarici dövlətdə qalan şəxslərin də əmlakı qəyyumluq idarəsinə keçirdi. İmperiyanın istənilən təbəəsini xaricə getməyə sövq edən şəxslər bütün hüquq və imtiyazlarından məhrum edilməklə Tomsk və ya Tambov vilayətlərinə sürgün olunmaya məhkum edilirdilər. Xaricə getmək üçün hərbi xidmətçiləri, yaxud rekrut növbəsində olanları sövq edən şəxslər bütün hüquq və imtiyazlarından məhrum edilməklə Sibirə sürgün olunmaya məhkum edilirdilər (Svod. Zakonov Rossiyskoy imperii 1857 st. 367, 368, 369, 370. st. 104-105). Qafqaz müharibəsinin başa çatması ilə (1817-1864-cü illər – İ.Ə.) Rusiya komandanlığı bölgənin "yekun fəthini" sürətləndirmək üçün əsasən Şimal-qərbi Qafqazın müsəlman əhalinin Osmanlı

dövlətinə köçürülməsini həyata keçirdi. Hələ işğalın ilk illərində çarizmin müsəlman əhaliyə münasibətdə məqsədyönlü şəkildə həyata keçirməyə başladığı zorakı pravoslavlaşdırma siyasətini sərtləşdirməsi əhalinin daha da ciddi narazılığına səbəb olur. Belə vəziyyətdə müsəlman ruhaniləri yerli əhalinin arasında təbliğatı gücləndirməyə başlayırlar. Eyni zamanda müsəlmanların tez-tez Məkkə və Mədinəyə ziyarətləri, ziyarətdən qayıdan hacıların o müqəddəs torpaqlarla bağlı bəzi hallarda şişirdilmiş hekayələri də yerli müsəlmanlar arasında mühacirət əhval-ruhiyyəsinin artmasına səbəb olmuşdu. Müsəlmanların köçündən bəhs edərkən, bu zaman həm də Osmanlı dövləti tərəfindən xüsusi tapşırıqla göndərilmiş nümayəndələrin rolunu da qeyd etmək lazımdır.

Bu barədə baş komandan A. İ. Baryatinskinin imperiyanın xarici işlər nazirinə yazdığı 19 noyabr 1859-cu il tarixli məktubunda deyilirdi ki, Qafqaz müsəlmanlarının Osmanlı dövlətinə və onların müqəddəs yerlərindən olan Məkkə ziyarətinə getmələrinə əngəllər yaradan qaydalar yerli müsəlmanların ciddi narazılığına səbəb olur. Onun sözlərinə görə belə insanlar Qafqaza döndükdən sonra yerli müsəlmanlar arasında Rusiya imperiyasına qarşı düşmənçilik ruhunun aşılanmasında xüsusi rol oynasalar da, müsəlmanların qarşısında belə qadağaların qoyulması dinlərinin sıxışdırılması kimi qəbul olunur və bu, onları rus hökumətindən daha da uzaqlaşdıra bilər (АКАК, t. 12, dok №34, s. 51). Qafqazın müxtəlif yerlərindən bu barədə olunan çoxsaylı müraciətləri nəzərə alan Baryatinski məktubunda diyarın tamamilə ram edilməsi üçün bütün digər tədbirlərlə yanaşı onların müqəddəs yerlərə ziyarətə getmələrini asanlaşdırmağın da zəruri olduğunu bildirirdi. Xaotik köçmə prosesini qaydaya salmağa çalışan baş komandan A.İ.Baryatinski tərəfindən xüsusi "Qaydalar" hazırlanır. Burada köçdən söhbət getmir, onların bir ilə kimi olan müddətə imperiyanı tərk etmələrinə icazə verilirdi. Köçənlər ailələrini və xidmətçilərdən arzu edənləri özləri ilə götürə bilərdilər. Bir ildən artıq keçərli səbəb olmadan icazəsiz Osmanlı dövlətində qalanların Vətəndə qalan mülkü müsadirə olunur və onların hərəkəti xəyanət kimi dəyərləndirilirdi. Keçərli səbəbi olanlar isə bu barədə Rusiyanın Osmanlı dövlətindəki konsuluuna məlumat verərək müddətdən artıq qalmalarının səbəbini əsaslandırmalı və konsulun icazəsini almalı idilər. Bu məqsədlə hazırlanmış xüsusi "Qaydalar"da yerli əhalinin Cənubi Qafqazın ərazisindən quru yolla Türkiyəyə göndərilməsi barədə göstərilirdi:

1. Onlara bir ildən çox olmamaq şərtilə Osmanlı dövlətinə köçmələrinə icazə verilirdi;

2. Xarici dövlətin təbəəliyinə keçmək Rusiya qanunları ilə qadağan olduğundan beləlləri xəyanətkar hesab olunmaqla onların əmlakları müsadirə olunacaq, asılı kəndliləri azad olunacaqlar;

3. Osmanlı dövlətinə gedənlər xəstəlik, şəxsi işi, yaxud başqa bir bir səbəbdən icazə verilmiş müddətdən artıq qalmaq zərurəti yaranardısa bu barədə Rusiyanın həmin ölkədəki konsuluna tutarlı dəlillər təqdim etməklə müddətinin uzadılmasını və bu barədə Qafqaz komandanlığını məlumatlandırmağı xahiş etməlidir;

4. Konsulun icazəsi olmadan verilən möhlətdən artıq Osmanlı dövlətində qalanların hərəkəti özbaşına köçmək kimi qiymətləndiriləcək;

5. Osmanlı dövlətinə gedənlər onlara qarşı açılmış bütün məhkəmə çəkişmələrini və iddialarını təmin etmək məcburiyyətindədirlər ;

6. Köçənlər özləri ilə ailə üzvlərini və təhkimlilərindən köçməyə razı olanları götürə bilərdilər (AKAK, t. 12, dok. №34, s. 52).

Qaydalarda ilk əvvəl eyni vaxtda ən çox 10 ailənin Türkiyəyə getmələrinə icazə verilirdisə, sonradan bu hədd 40 ailəyə qədər artırılmışdı. Yerli müsəlmanların Osmanlı dövlətində icazəli halda bir ilə kimi qalmaq möhlətinin qoyulmasına baxmayaraq çar hakimiyyət orqanları bilirdi ki, onların əksəriyyəti birdəfəlik orada qalmaq niyyəti ilə gedirdilər. Məhz bu səbəbdən də qaydalarda bir ildən sonra geri qayıtmayanların əmlaklarının müsadirəsi barədə xüsusi maddə salınmışdı. Bu barədə A. İ. Baryatinski imperiyanın xarici işlər nazirinə məktubunda bildirirdi ki, Məkkəyə getmək üçün müraciət edənlər dəyər-dəyməzinə öz mal mülkünü satırdılar ki, bu da onların icazə ilə getmələrinə baxmayaraq geri qayıtmaq niyyətində olmadıqlarını göstərirdi. A. İ. Baryatinski bu barədə açıq şəkildə qeyd edirdi ki, bu qaydalara baxmayaraq müsəlmanların çoxu Osmanlı dövlətinə geri qayıtmamaq məqsədilə gedir və daimi olaraq orada qalırlar (AKAK, t. 12, dok. №34, s. 51-53). Osmanlı dövlətində "mühacirlik" haqqında qanun Qafqaz müharibəsinin (1859-1864) rəsmi şəkildə başa çatmasından 7 il əvvəl, 1857-ci il martın 9-da qəbul edilmişdi. Bu qanunla mühacirlər vergilərdən və hərbi xidmətdən azad olunurdu. 1860-cı ildə bu qanun əsasında mühacirlərin qəbul edilməsi və onların yerləşdirilməsi problemləri ilə məşğul olan komissiya (Mühacirin Komisyonu – Ə.İ.) yaradılmışdı. Fəaliyyətinin ilk dönəmində bu komissiya mühacirlərin köçürülməsi, onlara maddi yardımın göstərilməsi kimi funksiyalarının öhdəsindən gələ bilsə də, köç hərəkatı genişləndikcə, böyük miqyas aldıqca, istər-istəməz çətinliklər yaranmağa başladı və Komissiyanın fəaliyyəti çətinləşdi. Türkiyədə firavan həyatla bağlı fikirlərlə bura üz tutan köçkünlərin də çətinliklərlə üzləşmələri və bəzilərinin geri qayıtmaq istəmələri də bununla bağlı idi (Berber, 2011).

Müsəlman əhalinin, xüsusilə ruhanilərin Türkiyəyə köçməsində çarizm özü də maraqlı idi. Bu barədə sonralar Kaluqada olanda Şamilin çar tərəfindən təyin olunmuş pristavı

Prjeslavski yazırdı: "Türkiyəyə köçürülənlərin bizə zərəri ola bilməz, Qafqazda saxlanılan fanatiklər isə onların təbliğatı ilə bizim ziyanımıza inkişaf edə biləcək bir yaradır" (Musaeva, Maqomeddadaev & Kubanov 1999). Şamil hərəkatının başa çatmasından sonra Şimali Azərbaycanda da çarizmin müstəmləkə siyasətinə qarşı mübarizə üsulu kimi Osmanlı dövlətinə köçü başlayır. Bu dövrdə müsəlman əyalətlərində Osmanlı dövlətinə köçlə bağlı ciddi həyəcanlar yaşanırdı. Azərbaycanın qəzalarında da Osmanlı dövlətinə köçmək üçün hərəkat başlanmışdı. 1861-ci ildə Zaqatala dairəsinin əhalisi hamılıqla Osmanlı dövlətinə köçmək üçün razılığın verilməsi tələbi ilə Qafqaz komandanlığına müraciət etmişdi (SGQİA, Gruzii, F. № 416, op. № 3delo № 1270, l. 1-3). Bu barədə Semyon Esadze yazırdı: "Hakimiyyət orqanlarının özbaşınalıqlarından Tiflisə dəfələrlə göndərilmiş şikayətlər, bir neçə dəfə aparılmış istintaqlar nəticəsiz qalmışdı. Hətta ali hakimiyyət administrasiyasının diqqətini özlərinə cəlb etmək məqsədilə əhalinin yekdilliklə Türkiyəyə köçürülmələri ilə bağlı xahişləri belə hakimiyyət orqanlarında heç bir reaksiya doğurmadı"

Nəticədə 1862-ci ildə Zaqatala dairəsinin Əliabad kəndindən 40 araba ailə məcburi xristianlaşdırmaya etiraz əlaməti olaraq Türkiyəyə köçmüş və hazırda onların Türkiyə Respublikasının Adana vilayətinin Ceyhan ilçəsindəki Dağıstan kəndində yaşayan varisləri – ingiloy mənşəli türklərin Əliabad kəndi ilə əlaqələri mövcuddur (Əliyev, 2000). Lakin Cənubi Qafqaz müftisinin və bir sıra nüfuzlu müsəlman ruhanilərinin yardımı ilə hökumətin gördüyü tədbirlərlə Türkiyəyə bu kütləvi köçün genişlənmədən qarşısını almaq mümkün olur (Esadze, 1907). 1863-cü ildə Hacı Murtuzun başçılığı altında baş vermiş Zaqatala üsyanının yatırılmasından sonra isə üsyanın fəal iştirakçılarının bir hissəsi çarizmin cəza tədbirlərindən yaxa qurtarmaq üçün Osmanlı dövlətinə mühacirət etmişdilər (Məmmədov, 2001). XIX əsrin 60-cı illərin sonuna doğru Şimali Azərbaycanda yenidən Osmanlı dövlətinə köçlə bağlı növbəti fəallaşma müşahidə olunur. 1869-cu ildə hakimiyyət orqanlarına Zaqatala dairəsinin müxtəlif kəndlərindən Osmanlı dövlətinə köçmək üçün icazənin verilməsi xahişi ilə müraciət etmişdilər. Köç üçün müraciət edənlərin sayı ayrı-ayrı kəndlər üzrə aşağıdakı kimi idi: Car kəndindən 450, Taladan 210, Əliabaddan 373, Göyəmdən 135, Mosuldan 112, İlisudan 40, Sumaylıdan 25, Muğanlıdan 124, Kəpənəkçidən 35, Əliəskərdən 14, Qorağandan 5, Şıxlardan 16, Şotavardan 3, Fıstıqlıdan 23, Zəyəmdən 1, Ambarçaydan 13, Çobankoldan 119, Babalıdan 8, Almalıdan 135, Qımırdan 79, Padardan 15, Qandaxdan 100, Bəhmədlidən 7, Lələlidən 7, Yengiyandan 3, Sabunçudan 60, Katexdən 250, Sarıbaşdan 13, Köysərlidən 12, Mamrıxdan 57, Masexdən 76, Əzgillidən 14, Qarqaydan 29, Suvagildən 114, Çardaxlardan 162, Oncalıdan 20, Dəymədağıldıdan 36, Qazmalardan 20, Bazardan 50, Muxaxdan 432, Qasdan 21, Kələldən 34,

Böyük Lahıcdan 3, Kürdəmirdən 24, Baydarlıdan 30, Kiçik Lahıcdan 77, Kəndirqaladan 11, Qıpçaxdan 48, Qara Taladan 4, Uzuntaladan 3, Faldardan 50, Balakəndən 40, Qara Abdallıdan 34, ümumilikdə dairədən 3776 ailə Türkiyəyə köçmək üçün hakimiyyət orqanlarına müraciət etmişdilər (SGİA, Gruzii, F. № 545,op. № 1, delo.№ 442, ll. 27-28). Əgər orta hesabla hər ailə başına 5 nəfərdən götürdükdə onda Osmanlı dövlətinə köçlə bağlı müraciət etmiş dairə sakinlərinin təxmini sayının 18880 nəfərə qədər olduğu bəlli olur. Nəzərə alsaq ki, həmin vaxt üçün Zaqatala dairə əhalisinin ümumi sayı 64324 nəfər (1873-cü il kameral siyahıyaalınmasını məlumatına görə) (SSKQ, vıp. IX, s. 52-54) idi ki, bu da Osmanlı dövlətinə köçmək üçün müraciət edənlərin dairə əhalisinin təxminən 29 faizini təşkil etməsi demək idi.

1873-cü ilə dair digər bir arxiv sənədindən bəlli olur ki, Zaqatala dairəsindən Türkiyəyə köçəcək ailələr üç qrupda birləşməklə kəndlər üzrə aşağıdakı şəkildə bölünmüşdülər. Köçənlərdən: Əliabad kəndindən 146, Muxaxdan 6, Qımırdan 5, Marsandan 5, Muğanlıdan 7 nəfər olmaqla 169 nəfərlik hissəsi birinci qrupda, Tala kəndindən 45 nəfərdən ibarət doqquz ailə ikinci qrupda, Car kəndindən 114, Sumaylıdan 36, Masexdən 21 nəfərdən ibarət 171 nəfərlik hissə üçüncü qrupda birləşmişdilər (SGİA, Gruzii, F. № 545,op. № 1,delo № 442, ll 2-26). Qafqazdan Osmanlı dövlətinə köçün növbəti mərhələsi isə 1877-1878-ci il Rusiya-Osmanlı müharibəsi dövrünə təsadüf edir. Bu müharibə ərəfəsində də Qafqazdan vaxtı ilə Osmanlı dövlətinə mühacirət etmiş adamlar bu diyara gələrək yerli əhali arasında rus hakimiyyətinə qarşı üsyan qaldırmaqla bağlı təbliğat aparmışdırlar. Həmin vaxtı Osmanlı dövləti tərəfindən göndərilən xüsusi nümayəndələr İmam Şamilin oğlu Qazı Məhəmmədin müsəlmanları çarizmə qarşı mübarizəyə çağıran məktublarıyla Azərbaycan, Dağıstan və Çeçenistanda olmuşdular (Məmmədov, 2001). Bu barədə Zaqatala dairə rəisinin məlumatında göstərilirdi ki, dairədən mühacirət etmiş adları məlum olmayan üç mühacir əllərində Qazı Məhəmmədin məktubu ilə Zaqatala dairəsindən keçmişlər. Həmin məlumatda daha sonra göstərilirdi ki, dairə sakinlərindən altı nəfər avar Qazı Məhəmmədin cihada səsləyən məktubuyla qonşu bölgələrə getmişdilər. Məktubda Qazı Məhəmmədin osmanlı ordusu ilə Qafqaza doğru irəlilədiyi və əhalinin ona qoşulmasını tələb etdiyi göstərilirdi (Meqrelidze, 1972). Bu bölgədə zorakı xristianlaşma siyasətinə qarşı XX əsrin əvvəllərindən Osmanlı dövlətinə köçlə bağlı növbəti mərhələ başlayır. Bununla bağlı Zaqatala dairə sakini Hacı Molla İsmayıl Murtuzəli oğlu 1903-cü ilin martında Batumda yerləşən Osmanlı konsulu ilə görüşmüş, konsuldan müsəlmanların Osmanlı dövlətinə köçmələri üçün icazə verilməsi məqsədilə rus hökumətinin qarşısında məsələ qaldırmağı xahiş etmişdi. Buna görə Hacı Molla İsmayıl Murtuzəli oğlu rus hakimiyyət orqanları tərəfindən həbs olunaraq Ryazan vilayətinə sürgün olunmuşdu (SGİA, Gruzii, F.

229,op. 2,delo 2275, l. 26). Zaqatala dairə rəisi polkovnik Yazıkovun Qafqaz canişininin dəftərxanasına yazdığı 1904-cü il 10 may tarixli məktubunda qeyd olunur ki, 1902-ci ilin payızından etibarən dairədə Osmanlı dövlətinə köçlə bağlı əhali arasında təbliğat başlamışdı. Həmin vaxtı dairə sakinləri Hacı Məhəmməd Baknalov və qardaşı Abdulla Baknalov, eləcə də Nuxa sakinləri Hacı Məmməd oğlu Gözəlov və Bəhlul Qafar dairə əhalisinin arasında Osmanlı dövlətinə köçlə bağlı gizli təbliğatla məşğul idilər. Bununla bağlı günahkar bilinən Hacı Məhəmməd Baknalovun həbs olunaraq Ryazan quberniyasına sürgün olunması qərara alınsa da, o, Osmanlı dövlətinə qaça bilmişdi. Buradan o Balakəndəki qardaşı Abdulla Baknalov vasitəsilə təbliğatını davam etdirirdi. Buna görə də Abdulla Baknalov həbs olunaraq dairə rəisinin 1903-cü il 26 iyun tarixli təklifinə əsasən Rusiyanın daxili quberniyalarına sürgün olunmuşdu. Abdulla həbs olunarkən ondan qardaşının Osmanlı dövlətindən yazdığı məktublar tapılmışdı. Dairə rəisinin məktubundan bəlli olur ki, Məhəmməd Baknalov Osmanlı dövlətindən xüsusi tapşırıqla Qafqaza gələ bilmiş, Balakən və Ansux-Kapuçin (Dağıstanın cənubunda icma – Ə.İ.) məntəqələrində gizlin şəkildə Osmanlı dövlətinə köçlə bağlı təbliğatla məşğul olmuşdu (SGİA, Gruzii, F.229, op. 2, delo 2275, ll. 12-12 ob).

Çarizmin Şimali Azərbaycanın müsəlman əhalisinə qarşı həyata keçirdiyi müstəmləkəçi siyasəti Cənubi Qafqazın ayrı-ayrı qəzalarının müsəlman əhalisinin Qafqaz canişininə müraciətində tam çılpaqlığı ilə öz əksini tapıb. Bu müraciətdən də göründüyü kimi çar Rusiyasının Cənubi Qafqazda yeritdiyi milli, dini, etnik ayrı seçkilik siyasəti çarizmin burada həyata keçirdiyi sosial-iqtisadi və siyasi tədbirlərin müstəmləkəçi mahiyyəti ilə xarakterizə olunurdu. Buna misal olaraq qeyd etmək lazımdır ki, Rusiyanın zorakı pravoslavlaşdırma siyasətinin xüsusilə sərt vasitələrlə aparıldığı Zaqatala dairəsində kişi cinsindən olan müsəlmanlar üçün İslam dininin müqəddəs yerlərinə ziyarətə getmək üçün 50 yaş həddi qoyulmuşdu. Bununla çar hakimiyyət orqanları dairənin bir növ əsas döyüş qabiliyyətli hissəsinin imperiyanın hüdudlarından kənara çıxmasının qarşısını almaq məqsədi daşıyırdı (ARDTA. f. 15, s. 1, iş 25, v. 5). 1907-ci ilin fevralın 20-dən iyunun 3-ə kimi fəaliyyət göstərmiş II Dövlət Dumasının Dağıstan vilayəti və Zaqatala dairəsindən seçilmiş üzvü, dairə sakini Aslanbəy Qardaşovun rəhbərliyi altında hazırlanmış müraciətdə göstərilirdi ki, Rusiya imperiyasının təbəələri kimi öhdələrinə düşən vəzifələri yerinə yetirmələrinə baxmayaraq, imperiyanın müsəlman əhalisi onun digər təbəələri ilə bərabər hüquqa malik deyil, onların dini azadlıqları sıxışdırılır (ARDTA, f. 15, s. 1, iş 25, v. 5).

**Nəticə**

Osmanlı dövlətinə olmuş köç prosesinin səbəbləri əsasən çarizmin milli-müstəmləkə siyasəti ilə bağlı olmaqla həm də Şimali Azərbaycanda mövcud olan ağır sosial-iqtisadi vəziyyətdən irəli gəlirdi. Şimali Azərbaycandan Osmanlı dövlətinə köçmələr əvvəlki dövrlərdə də mövcud olsa da, köçmə hərəkatının müəyyən qədər kütləvi hal almasını Qafqaz müharibəsinin sonlarına aid etmək olar. Şimal-Şərqi Qafqazda hərbi əməliyyatlar başa çatdıqdan az sonra Osmanlı dövlətinə köçmə hərəkatı kütləvi xarakter almağa başlamış, onlar ilk növbədə müridizm hərəkatının iştirakçıları olmaqla, vaxt keçdikcə əhalinin çarizmin müstəmləkəçi siyasətindən narazı qalan müxtəlif kateqoriyalarını da əhatə etməyə başlamışdı.

**Kaynaklar**

Abdulaeva, M. İ. (2006). D*agestan v politike Osmanskoy imperii vo vtoroy polovine XVIII v. - XIX v*. İİAE DNS RAN.

Berber, F. (2011). 19. yüzyılda Kafkasya'dan Anadolu'ya yapılan göçler. *Karadeniz Araştırmaları*, (31), 17-49.

Esadze, S. (1907). İstoriçeskaya zapiska ob upravlenii Kavkazom. (Sost. red. Voen-ist. Otd. Okr. Ş. S. Esadze). T.1. Quttenberq.

Əliyev Ş. H. (2000). Rusiya imperiyasının Şimali Azərbaycanda müstəmləkəçilik siyasətində ingiloyları xristianlaşdırmaq cəhdləri (XIX əsr). *Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası,* 2, 91-105.

Matveev V. A. (2017). Kavkazskaya voyna diskussionnıe aspektı i reali epoxi. http://www.kavkazoved.info/images/myfls/2017/k-war2017.pdf

Meqrelidze, Ş. V. (1972). *Qruziya v russko-tureskoy voyne 1877-1878 qq*. Mesniereba.
Məmmədov, Ə. F. (2001). *Şimal-qərbi Azərbaycan: Zaqatala dairəsi*. Adiloğlu.

Musaeva, M. K., Maqomeddaev, A. M. & Kurbanov, M. Y. (1999). *Daqestanskaya diaspora v Tursii. (İstoriko-etnoqrafiçeskie oçerki).* DNS RAN.

*Otzıv qlavnokomandyuşeqo Kavkazskoy armey. 1904. Ministru inostrannıx del, ot 19-qo noyabrya 1859 qoda*.AKAK, tom 12, Tiflis, 1904, dok. №34, str. 51-53.

*Petisiya musulman Zakatalskoqo okruqa Kavskomu Namestniku 1905 qod*. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA), Fond № 15, siyahı № 1, iş № 25, vərəq 5.

*Pismo naçalnika Zakatalskoqo okruqa v kanselyariyu Namestnika Kavskoqo, ot 10-qo maya 1904 q*. SGİA Gruzi, Fond № 229, opis № 2, delo № 2275, ll. 12-26.

*Pismo Şelkovnikova k gen-m A.K.Karüovu*. SGİA Gruzi, Fond № 416, opis № 3, delo № 1270, ll. 1-3.

*Posemenıy spisok jiteley Djarskoqo i Belokanskoqo uçastkov pereselyayuşiesya v Tursiyu 27-qo iyunya 1869 qoda*. SGİA Gruzi, Fond № 545, opis № 1, delo № 442, ll. 2-26.

*Sevedeniya o koliçestve narodonaseleniya v q Zakatalah i Zakatalskom okru qe 1876*. Sbornik Svedeniy o Kavkazskih Qorsah, vıp. IX, Tiflis, izdaniya Kavkazskoqo Qorskoqo Upravleniya, str. 52-54.

*Spisok jiteley Nuhinskoqo uezda prosyaşim pozvoleniya pereselitsya na litelstvo s semeystvami v Persiyu i Tursiyu. 1849 qod.* SGİA Gruzii, Fond № 3, opis № 1, delo № 907, listı – 76-76 ob.

*Spisok qlavnım lisam, sodeystvovavşim k rasprostraneniyu v 1854 i 1855 qodah novoqo uçeliya myuridizma v Şemahinskom uezde pod predvoditelstvom jitelya toqo je uezda selenie Kyulili Gadji Ahmed Efendi*. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 45, siyahı № 2, iş № 82, vərəq 8-9 arxa.

*Svod zakonov Rossiyskoy imperii. 1857.* İzdanie 1857 qoda. Tom 15. Zakonı ugolovnıe. Kniga pervaya. Ulojnenie o nakazaniyah ugolovnıh i ispravitelnıh. O nedozvolennom ostavlenii oteçestva. St. 367, 368, 369, 370. Стр. 104-105. Spb. Tipoqrafiya 2-qo otdeleniya EİV. https://runivers.ru/bookreader/book388232/#page/17/mode/1up

*Vedomost o çisle dvorov Zaqatalskogo okruqa izyavivşix jelanie perecelitsya v Tursiyu*. İyul Июль 1869 god. Sentralnıy Qosudarstvenıy İstoriçeskiy Arxiv Qruzi (ЦГИА Грузии), Fond № 545, opis № 1, delo № 442, ll. 27-28